# Subject: Loans

# Təhsil Tələbə Krediti

## Təhsil Tələbə Kreditinin növləri

Təhsil Tələbə Kreditinin (TTK) sosial və standart növləri mövcuddur.

1. Aşağıdakı tələbələr təhsillərinin birinci tədris ilinin ilk semestrindən (yarımildən) **sosial TTK-dən istifadə etmək hüququna malikdirlər**

   - Ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;
   - 3-cü dərəcə əlilliyi olanlar;
   - ailə başçısını itirməyə görə əmək pensiyası alanlar;
   - ailə başçısını itirməyə görə sosial müavinət alanlar
   - hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) və ya digər qanuni nümayəndələri aşağıda qeyd olunan kateqoriyaların hər hansı birinə aid olanlar:
   - orqanizmin funksiyalarının 61-80 və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər;
   - işsiz kimi qeydiyyatda olanlar;
   - yaşa görə əmək pensiyası alanlar;
   - yaşa görə sosial müavinət alanlar;
   - ailə başçısını itirməyə görə əmək pensiyası alanlar;
   - bir valideyni orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş, digər valideyni orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq etdiyinə görə Azərbaycan Respublikası Prezidentinin təqaüdünü alan şəxslər;
   - bir valideyni müəyyən müddətə azadlıqdan məhrum etmə, ömürlük azadlıqdan məhrum etmə və ya azadlığın məhdudlaşdırılması növlərində cəza çəkən, digər valideyni bu Qaydanın 3.2.3-cü yarımbəndində qeyd olunan kateqoriyalardan hər hansı birinə aid olan şəxslər.”.

2. Sosial kredit almaq hüququ olmayan tələbələr isə təhsillərinin birinci tədris ilinin ilk semestrindən (yarımildən) etibarən **standart kredit almaq hüququna malikdirlər**:

## Təhsil Tələbə Kreditini kimlərə şamil olunur

1. Birinci tədris ilinin ilk semestri (yarımili) üçün tələbə qəbulu imtahanında toplanan ümumi balın Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilən minimal həddindən yuxarı olanlar

   - Bakalavr səviyyəsi üçün 250-700 aralığında bal toplayan*;
   - Magistratura səviyyəsi üçün 50-100 aralığında bal toplayan;

***** *SAT və ya ADA məktəbi vasitəsi ilə qəbul olan tələbələr birinci tədris ilinin ilk semestrində TTK-ya müraciət edə bilməzlər*
***** *Xüsusi qabiliyyət tələb edən ixtisaslarda bakalavr səviyyəsi üçün 100 bal, magistratura səviyyəsi üçün 30 bal.*

2. Digər semestrlər (yarımillər) üçün isə son semestr (yarımil) üzrə ÜOMG-si 71 bal və yuxarı olanlar*****

   - Bakalavr səviyyəsi üçün 2.0 term GPA
   - Magistratura səviyyəsi üçün isə 2.75 term GPA

***** *Tələbə müraciət zamanı yuxarıda qeyd olunmuş term GPA tələblərinə cavab verirsə, ÜOMG xanasında bir qayda olaraq 71 bal qeyd etməlidir. Universitet tərəfindən təyin olunmuş məsul şəxs müraciətə baxış zamanı ÜOMG xanasına müvafiq düzəlişlər edəcək*

## Təhsil Tələbə Kreditini kimlərə şamil olunmur

Aşağıda qeyd olunmuş tələbələr TTK almaq **hüququna malik deyil**:

- Dövlət imtiyazları (məçburi köçkün, şəhid ailəsi, əlil, valideyn himayəsindən məhrum, müharibə veteranı və s.) olan tələbələr;
- Semestr (yarımil) üzrə akademik borcu olan tələbələr (semestr ərzində iştirakdan imtina olunmuş dərslər istisna olunur).
- İllik təhsil haqqının 20 faizini ödəməyən tələbələr (bu qayda yalnız standard TTK-ya müraciət edən tələbələrə aiddir)

## Təhsil Tələbə Krediti haqqında əlavə məlumatlar

- Təhsil krediti hər tədris semestri (yarımil) üzrə yalnız bir dəfə və təhsilin normativ müddətində verilir.
- TTK almaq hüququnu müəyyənləşdirən halların müraciətin qeydiyyata alındığı tarixdən sonra dəyişməsi həmin semestr üçün verilmiş kredit şərtlərini dəyişdirmir.
- TTK üçün girov və zaminlik tələb olunmur.
- Kreditlərin verilməsi Fondla müvəkkil bank arasında bağlanmış baş sazişə uyğun olaraq tələbələrlə bağlanılan çərçivə kredit müqavilələri əsasında təhsil müəssisələrinə köçürüləcək.
- Təhsil tələbə kreditləri sığortalanır.
- Təhsil tələbə krediti üzrə kreditin maksimal məbləğini və kredit faizlərini Fondun Himayəçilik Şurası təsdiq edəcək.
- Təhsil tələbə krediti üzrə müraciətlərin edilməsi, qeydiyyatı, tələbənin statusunun və hüququnun müəyyən edilməsi və digər əməliyyatlar bu məqsədlə yaradılan elektron informasiya sistemi vasitəsi ilə həyata keçiriləcək.
- TTK-nin verilməsindən imtina edilmiş şəxsin TTK almaq üçün növbəti semestrdə (yarımildə) təkrar müraciət etmək hüququ var.
- Borcalanda TTK-nin qaytarılması öhdəliyi TTK-nin qaytarılma dövründə, yəni güzəştdövründən sonra yaranır.
- TTK almış, lakin təhsilini başa çatdırmamış və təhsil müəssisəsindən xaric olunmuş borcalana münasibətdə TTK-nin qaytarılması öhdəliyi bu halların təhsil müəssisəsi tərəfindən rəsmiləşdirildiyi gündən başlanır.
- Güzəşt dövründə borcalanın əmək və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu müəyyən edilərsə, tələbə kreditlərinin qaytarılması öhdəliyi bu fəaliyyətin başlandığı tarixdən yaranır
- TTK borcalanın özü və ya onun əvəzinə hər hansı bir şəxs (valideyni, qohumu, işəgötürəni və s.) tərəfindən qaytarıla bilər

TTK-nin qaytarılması dövründə aşağıdakı hallar baş verərsə, TTK-nin qaytarılmasına möhlət verilir və kredit müqaviləsinin müddəti həmin müddətə qədər uzadılır:

- yuxarı təhsil səviyyəsində əyani təhsil;
- həqiqi hərbi xidmət;
- məhkumluq (4 ildən çox olmayaraq azadlıqdan məhrumetmə və ya azadlığın məhdudlaşdırılması);
- işləyən borcalana münasibətdə hamiləliyə və doğuma görə və uşağının üç yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qismən ödənişli sosial məzuniyyətdə olduğu müddət;
- *orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə* qulluq müddəti.